# ÜRƏKLƏRDƏ YAŞAYAN İNSAN



Bəşəriyyətin tanınan, sayılıb-seçilən, zamandan-zamana, tarixdən-tarixə qovuşan böyük simaları, şəxsiyyətləri sırasında Azərbaycan xalqının böyük oğlu, Ulu Öndərimiz Heydər Əliyev cənablarının adı da var. Hər birimizə doğma və əziz olan insan öz əmək fəaliyyəti, daxili və xarici siyasəti, eləcə də vətəndaş mövqeyi ilə bütün zamanların BÖYÜK İNSANI olmaq haqqını qazanıb. Bu elə bir haqdır ki, onu yalnız xalqın sevgisi ilə əldə etmək mümkündür.

1993-cü ildə Azərbaycan xalqının təkid və tələbi ilə ikinci dəfə ölkə rəhbərliyinə gətirilən və özünün böyük strategiyası ilə Azərbaycanı yeni üfüqlərə aparan Ümummilli Liderimizin ölkədə həyata keçirdiyi iqtisadi, siyasi kursa görə, Azərbaycan tarixinin ən şanlı səhifəsinə adını həkk etdirmək hüququ qazandı. Aparılan aqrar islahat, imzalanan neft kontraktları, bir sözlə, ölkədə baş verən bütün müsbət dəyişikliklər məhz Heydər Əliyev cənablarının adı ilə bağlıdır. Sevindirici haldır ki, bu gün Ulu Öndərimizin layiqli davamçısı, ideyalarının və həyat amalının varisi Ali Baş Komandan İlham Əliyev cənabları da məhz bu yolun davam etdirilməsi, yaşadılması üçün böyük işlər görür.

İndi Azərbaycan xalqı öz böyük oğlunun anım gününü qeyd edərkən qəlbindəki kədəri sevincə qatır. Çünki öz böyük oğlunun məzarını ziyarət edərkən onun yaşayan əməlləri ilə qürur duyur və inanır ki, bu qürur hissi Azərbaycan xalqı ilə minilliklərə gedəcəkdir.

***Azad İbrahimov***

***"ANT" Şirkətlər Qrupunun prezidenti***

Ədalət.-2019.-12 dekabr.-S.3.